

*Nurəddin ƏDİLOĞLU*

# QOCA ƏSGƏR

**Esse**

### *Ön söz yerinə...*

...Qarabağlı Zülfi kişini neçə illərdir ki, tanıyırdım. Hər dəfə ağrılı-acılı olsa da, söhbətimiz tuturdu. Şuşadan, İsa bulağından, Cıdır düzündən söz düşəndə: "Yaralı qəlbimə toxunma, qardaş!.. Mən xəstəyəm" - deyərək, harasa tələsdiyini söyləyib, kövrək addımlarla məndən uzaqlaşardı da. Baxan deyərdi ki, Zülfi kişinin nəyi xəstədir? Maşallah, sap-sağlam kişidir. Ancaq əsgər qiyafəsində get-gedə qocalan bu kişi həqiqətən də xəstəydi - VƏTƏN XƏSTƏSİ... Ürəyində yara gəzdirirdi - ŞUŞA YARASI...

**Həmişə əsgər olduğu ilə öyünən Zülfi kişinin sorağı bir gün doğurdan da xəstəxanadan gəldi... İdarə etdiyi köhnə "Jiqili"maşınını böyük Nil ağacına çırparaq, bərk əzilmişdi. Xəstəxanaya ziyarətinə gedəndə gördüm ki, həyat yoldaşı Həqiqət xanımla oğlu Ceyhun başının üstünü kəsdirib. Nədənsə qəribə hissələr keçirdim. Elə bil Zülfi kişi maşınını çırpdığı iri gövdəli, qollu-budaqlı Nil ona bir vaxtlar Şuşada kölgəsində oturub dincəldiyi hansısa ağacı xatırlatmışdı. Və Zülfi kişi bir anlıq hər şeyi unudub, o ağacı qucaqlayıb, bağrına basaraq öpmək istəmişdi. Qəza da elə bu an baş vermişdi...**

Məni çarpayısının yanında görəndə dərindən köks ötürüb, Şuşa haqqında elə qəmli söhbətə başladı ki, kövrəldim. Elə bil mənə söylədiyi bu daxili monoloqu illərlə qəlbində gəzdirməkdən daha bezib-usanmışdı...

### *Monoloq...*

**-Mən əsgərəm qardaş! Qaçqın sözü arıma gəlir, bağrımı dəlir, mən didərginəm! Demə ki, əsgərin didərgini olmur. Olur, qardaş, olur, bu haqqı nahaqqa verən dünyada nə desən olur. Hər dəfə Şuşa yuxularıma girir, göz yaşlarım balıncıma süzülür, qardaş!.. Xan lələmin səsi gəlir qulaqlarıma: "O başı dumanlı dağlar kimə qaldı?!" İsa bulağının suyunu kim içir, İlahi?!. Əgər o torpaqlara nə vaxtsa dönəsi olsaq, Şuşa oz dağlarının havasını, çeşmələrinin suyunu, meşələrinin cənnət güşəsini bizə HALAL edərmi görən?!. Vətən həsrəti çəkirəm, qardaş! Ağrıyıb-sızıldayan köksümdə YURD itkisinin acısı adlı bir kitablıq sözüm-söhbətim yatır!..**

Anam qərblikdə xəstələnib yatağa düşəndə hiss etdim ki, Qarabağ qədər mənə müqəddəs və əziz olan varlığı da itirirəm... Anam Qarabağsız öləcəkmi, ay Allah?!- deyə fəryad etdim.

...Vətəndən vətənə həsrətlə baxmaq bizimmi qismətimizə düşüb elə?! Bu necə alın yazısıdı, qardaş?! Taleyin bizimlə qəsdi nədir?!

...Masallıda Şır-şır bulağının suyunu içəndə həmişə ağlayıram. İsa bulağını xatırlayıram. Azərbaycanın başqa güşələrinə sığınmış didərgin qohumlarım mənə baş çəkməyə gələndə Şırşıra aparıram. Şuşa bulaqlarını yada salır, Masallıdakı İstisuyun qoynunda çağlayan irili-xırdalı bulaqlar...

Şuşanın işğalından gör nə qədər keçib!.. Hər ilin mayında qəzetlər ürək ağrıdan yazılar dərc edir. İşğalın ildönümündə yaralı qəlbimə təsəlli verəcək ən kiçik bir yazını belə böyük ümidlə oxuyuram. Kaş bir gün bütün qəzetlər qırmızı hərriflərlə: "BİZ ŞUŞAYA QAYIDIRIQ!" yazaydı! Torpaq olmayandan sonra bizim varlığımız nəyə gərəkdi, qardaş? Özü də hər an əmrə müntəzir bir qoca əsgər söyləyir, a bunu... Şair demişkən:

**Yüz oğul yoxluğu bilinməz, qardaş,**
**Bir ovuc torpağın yoxluğu qədər...**

Düz sözə nə deyəsən?! Nə qədər dost, silahdaş, qohum-əqraba itirmişəm. Vətən uğrunda vuruşan dəyərli oğullar gəlib-gedib... Eh, qardaş, Şuşanın işğalından üzü bəri nələr görüb, nələr eşitməmişəm ki... Dərdimin üstünə dərd gəlib elə... Özü-özü ilə döyüşən, öz içindən günahkarlar, özgələrin içində dost axtaran vətən qardaşlarımın sevgisinə, səbrinə, hövsələsinə mat qalıram hərdən! Qarabağsızlıq ovqatı nə vaxtacan belə davam edəcək, axı?! *(Susur)*

### *Dərdimizin zirvəsində...*

Yaddaşıma ilişir Zülfi kişinin ürək parçalayan kəlmələri. Şəhid silahdaşlarının ruhu qarşısında özünü borclu bilən bu ahıl kişinin gözləri yaşla dolur. Ətrafa Azəri qızı Günelin ürək ağrısıyla oxuduğu "COCUQLARIN GÜNAHI NƏ..." şərqisi yayılır. Hər ikimizin gözləri önündə Şuşasız doğulub- böyüyən qarabağlı uşaqlar canlanır. Doğma yurd yerlərindən didərgin düşmüş o uşaqlar dərdlə uyudular, dərdlə gəzdilər, dərdlə ortaq olub böyüdülər. İndi oğul-uşaq sahibi olan həmin "saqqalı uşaqlar" yaddaşlarından ölənədək silinməyən müharibə dəhşətlərini nə kinoda görüblər, nə də yuxuda. Onların gözləri qarşısında bacı-qardaşları, valideynləri azğın erməni faşistlərinin gülləsinə canlı hədəf olub... Xatırladıqları o qanlı səhnələr kinoya, kitaba dönüb: Qarabağ həqiqətlərindən danışır. Dünya isə o qədər erməni yalanı həzm edib ki, xarab mədəsi Azərbaycanın neftindən savayı heç nəyini qəbul etmir! Daha doğrusu, torpağımızın altındadkı sərvətimizi sömürür, torpağımızın üstündəki Qarabağ boyda dərdimizi "görmür".

### *Monoloqun davamı...*

- Yaralarımız qaysaq bağlamır ki, qardaş! Mənim taleyimə çox qəribə qəriblik düşüb!.. Xidməti işimlə bağlı yerimi dəfələrlə dəyişiblər. Mən əsgərəm, qardaş, buyruq quluyam. Bir əsgərin necəliyi verilən əmrə onun münasibətindən aydın olur. Düzdü, Azərbaycanın hər qarış guşəsi mənim üçün əzizdir. Elə təzə-təzə insanlara isinişdiyim məqamda sərəncamla başqa bir yerə göndərirlər. Hər şeyi yenidən başlamalı olursan, gəldiyin yerə, onun təbiətinə, insanlarına öyrəşməlisən... Qurban olum xalıqma, qədirbiləndi... Olduğum hər eldə, obada yaxşı in-sanlar görmüşəm, mənəvi korluğum olmayıb... Necə deyəllər, Allah eldən razı olsun!.. Sizin camaatdan da ömrüm boyu incikliyim ola bilməz!

### *Ancaq...*

**Sonra Zülfi kişi yenə DƏRD danışır. Qulaqlarımda ölməz Füzulinin məşhur kəlmələri "Həbibim fəsli DƏRDDİR bu" kimi səsələnir. Bu dərdi yazmaq olmur... Qulaq asdıqca da dərd üstünə dərd calanır. Şəhər cümə məscidinin minarəsindən avazla oxunan AZAN sədasını eşidib, bir anlıq susur. Azan səsi ucaldıqca ucalır.**

Sanki bu səs yatmış vicdanları oyatmaq istəyir. Yoxsa, işğal altındakı torpaqların və o torpaqlarda uyuyan müqəddəslərin ruhundan qopan harayı Allaha çatdırır?! Bu məmləkətdə diriykən ürəyi ölmüş, vicdanı yatmış o qədər insanlar var ki!.. Onlar nə o azan səsini eşidə bilir, nə də Zülfi kişini duyurlar. Deyir:

**- ... Bəzən nəfəsim çatışmır, qardaş! Udduğum hava haram olur mənə, elə bil gedib ciyərlərimə çatmır. Deyirəm, bu da axırı!... Gör ha, doğulduğum yerdən nə qədər uzaqda öləcəyəm... Şuşanı azad görmək arzum da mənimlə öləcək! Öz doğma dədə-baba torpağının qoynunda ölə bilməmək də faciədir, qardaş!**

53 yaşında dünyasını dəyişib atam... Mən ondan da çox ömür sürdüm. Amma nə fayda?! Eh! Qardaş, dərd çıxmır, ah çəkməklə adamın içindən... Mən vətənin sıravi əsgəriyəm. Ən yüksək vəzifəyə belə nə ürəyim, nə də ayaqlarım gedər!.. İnsan oğlu gərək bacardığı işin qulpundan tuta, qorxuram elə bu əsgər qiyafəsində təqaüd vaxtm yetişə, ancaq nə olsun, yenə də əsgər olaraq qalacam, yenə QƏLƏBƏ eşqiylə yaşayacam...

Eşitdim ki, keçmiş silahdaşlarından birini yüksək posta təyin ediblər.

Hələ üstəlik general rütbəsi də veriblər... Çox yaxşı dedim, bəlkə mən də bir təbrik teleqramı göndərim?! Yazım ki, "MƏN SƏNİN ƏSGƏRİNƏM, heyranı olduğum dərrakənə güvənirəm, yığ bizi başına - bütün didərgin əsgərləri yığ, torpağımızı azad edək, axı sən generalsan... Qərib bir insanmı yazım imza yerinə?! Yoxsa ürəyi yaralı "qoca əsgər?!." "Qaçqın" sözü çox ağır gəlir mənə... İnan, əgər desəm, bu illəri gözüm yolda, qulağım səsdə qalıb! Adımın "yardım" qeydiyyatına alınmasına belə etiraz etmişəm... Qaçqın sözü mənə ağır gəlir, qardaş, inan mənə!

...Ancaq nolaydı ki, kaş qapımızı döyəydilər: "Artıq zaman yetişib," deyəydilər, "Qarabağ uğrunda irəli!" əmrini verəydilər.

Mən döyüşə hazıram, qardaş! Axı, nə vaxtacan QƏLƏBƏ həsrətiylə qovrulacağam?! Şuşamı yuxularımda görəcəyəm?!

...Qismətimə düşən bu Masallı da mənim QƏRİB və DİDƏRGİN yuxularımın şəhəri olacaq?!. Yox, axı bu dünyada hər şeyin əvvəli olduğu kimi SONU da olur.

### *...son söz yerinə*

...Zülfi kişi, bu sözləri çoxdan - bir yay günü xəstəxanada söyləmişdin mənə. Bəli, sən yüksək mənəviyyatı olan, öz daxilində olduğu kimi görünən ƏSGƏRSƏN qardaş!.. Vətən aşiqisən! Ancaq aradan çox illər ötüb, sorağını ala bilmirəm. Masallıdan səssiz-səmirsiz ayrılıb, hara getdin, Zülfi kişi! Ürəyində gətirdiyin, illərlə ora-bura gəzdirdiyin DƏRDLƏ vidalaşmadan bu vətənin hansı guşəsinə üz tutdun, "qoca əsgər"?!. Bəlkə son görüşümüz zamanı yaralı qəlbinə toxundum, Zülfi kişi, didərgin düşmüş ruhunu incitdim?! Axı o DƏRD təkcə sənin deyil, hamımızın dərdidir - mənim, sənin, onun...

**Bütün vətən oğullarının vətən əsgərlərinin dərdidir, Zülfi kişi! Həmişə olduğu kimi qəlbimdən gələn ən səmimi hisslərlə sənə KİŞİ deyirəm: Zülfi kişi! Görəsən, hər addımbaşı kişilikdən dəm vurub, lüks imkanlarını gözə soxan, "Şuşa" restoranında dəmlənib, "Laçın" kafesində şellənən, "Xarı bülbül"də su sonası kimi qızların başına şabaş səpən, "Xan qızı"nda ləzginka oynayan bığıburma cahıllarımızın xətrinə dəymədim ki?! Hələ qürbətdə ömür-gün çürüdə-çürüdə "qocalan" dağ cüssəli ərənlərimizi demirəm... Demirəm, ya da deyə bilmirəm! Çünki qaçqın, ya da sənin dediyin kimi, DİDƏRGİN təkcə yurdu yuvası düşmən işğalı altında qalanlar deyil ki, Zülfi kişi!.. Qürbətdə yada-yabançıya dönüb illərlə öz ata-babasının məzarının ziyarətinə gəlməyən, ana-bacısının gözlərini yollarada qoyan, oğlu - qızı "ata" deyib, "Səni axtarıram"da fəryad edən vətən oğulları da didərgindirlər...**